+

# AZƏRBAYCAN RESPUBLİKASININ
# SƏHİYYƏ NAZİRİ

## Ə M R

№ 56

**Bakı şəhəri** "15" iyul 2015-ci il

**"Yaxın şərq respirator sindromlu koronavirus xəstəliyinə qarşı profilaktik tədbirlər barədə"**

Ümumdünya Səhiyyə Təşkilatının məlumatına əsasən 2012-ci ilin aprel ayında ilk dəfə olaraq Yaxın Şərq ölkələrində respirator sindromlu koronavirus (MERS-CoV) aşkar edilmiş və onun törətdiyi xəstəliyin qeydiyyata alınmasına başlanılmışdır.

2015-ci ilin may ayında xəstəliyin Cənubi Koreyada əhəmiyyətli dərəcədə alovlanması baş vermiş və hazırda davam etməkdədir.

Ümumən bütün ölkələr üzrə 1,3 mindən artıq insan bu virusa yoluxub və onlardan 500-yə yaxın vəfat etmişdir.

Qeyd olunanları nəzərə alaraq respublikada koronavirus xəstəliyinə qarşı profilaktik tədbirlərin gücləndirilməsi məqsədi ilə

## ƏMR EDİRƏM:

1. Respublikanın şəhər və rayonlarının tibb idarə və müəssisələrinin rəhbərlərinə tapşırılsın:

1.1. koronavirus xəstəliyi barədə tibb işçilərinin məlumatlandırılması təmin edilsin;

1.2. ağır kəskin respirator xəstəlik halları barədə məlumat dərhal yerli gigiyena və epidemiologiya mərkəzlərinə verilsin və bu xəstələrin hospitallaşdırılması üçün xüsusi palatalar ayrılsın;

1.3. şübhəli xəstələrdən götürülmüş nümunələr Respublika Taun Əleyhinə Stansiyasına çatdırılsın;

1.4. xəstəliyin simptomatik müalicəsi üçün dərman preparatlarının ehtiyatı yaradılsın;

1.5. tibb müəssisələrində dezinfeksiya tədbirlərinin həyata keçirilməsi gücləndirilsin.

2. Respublikanın şəhər və rayonların gigiyena və epidemiologiya mərkəzlərinin direktorlarına tapşırılsın:

2.1. əhalinin kütləvi məskunlaşdığı yerlərdə sanitariya-gigiyena norma və qaydalarına, dezinfeksiya rejiminə ciddi riayət edilməsinə nəzarət gücləndirilsin;

2.2. yoluxucu xəstəliklərin profilaktikasında şəxsi gigiyenanın gözlənilməsinin vacibliyi barədə əhali arasında maarifləndirmə işləri aparılsın.

3. Respublika Sanitariya-Karantin Müfəttişliyin rəisi E.Mahmudova tapşırılsın ki, xəstəlik baş vermiş ölkələrə səyahət etmək istəyən şəxslərin koronavirus xəstəliyi barədə məlumatlandırılması üçün tədbirlər görülsün.

4. Respublika Taun Əleyhinə Stansiyasının direktorunun vəzifəsini icra edən R.Abdullayevə tapşırılsın ki, koronavirusun laborator diaqnostikasının aparılması üçün hazırlıq tədbirləri görülsün.

5. İnnovasiya və Təchizat Mərkəzinin direktoru F.Əliyarzadəyə tapşırılsın ki, koronavirusun laborator diaqnostikasının aparılması, xəstəliyin müalicəsi, dezinfeksiya tədbirlərin həyata keçirilməsi üçün lazım olan vasitələrin ehtiyatı yaradılsın.

6. Baş məsləhətçi-mətbuat katibi L.Bayramovaya tapşırılsın ki, koronavirus xəstəliyi barədə operativ məlumatların Səhiyyə Nazirliyinin saytında yerləşdirilməsi təmin edilsin.

7. Əmrin icrasına nəzarət nazir müavinlərinə həvalə edilsin.

**Oqtay Şirəliyev**